Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.138-141
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.138-141
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.138-141

UOT: 159.955.6:37.017
https://doi.org/10.30546/670832.2025.01.1225

# Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə rolu

**Müəllif(lər):**

**Arzu İsmayıllı**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** ismayilliarzu856@gmail.com

**Açar sözlər:** mənlik, milli mənlik, emosional mühit, ailə, sosial mühit, şəxsiyyət

**Annotasiya.** Məqalədə emosional mühit insanın sosiallaşma prosesində mühüm amillərdən biri kimi çıxış edir və onun özünü dərk etməsinə, milli kimliyini mənimsəməsinə birbaşa təsiri göstərilir. Tədqiqat işində emosional mühitin müsbət və mənfi təsirləri, milli mənlik şüurunun inkişafına yönəlik psixoloji və pedaqoji yanaşmalar təhlil olunur.

Mövzunun aktuallığı müxtəlif dövrlərdə olduğu kimi bu gün də milli mənlik şüurunun inkişaf xüsusiyyətlərinin formalaşmasının böyük əhəmiyyət daşıması ilə bağlıdır. Tədqiqatın məqsədi emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşmasına təsirini araşdırmaqdır. Xüsusilə ailə, sosial mühit və kütləvi informasiya vasitələrinin insanın öz kimliyini dərk etməsində oynadığı rolu təhlil edilir. Tədqiqatın metodologiyasını dialektik idrak nəzəriyyəsi, milli mənlik şüuruna dair fəlsəfi, psixoloji-pedaqoji tədqiqatlarla bağlı müvafiq nəzəri biliklər təşkil edir. Tədqiqat zamanı müxtəlif metodlardan (müşahidə, eksperiment, müsahibə, sorğu və s.) istifadə olunmuşdur.

Tədqiqatın sonunda emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşması üçün ailədə sevgi və qarşılıqlı hörmətin təşviq edilməsi, məktəbdə emosional dəstəyin təmin olunması və milli dəyərlərin qorunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi nəticə olaraq qeyd edilmişdir.

## The role of emotional medium ın the formation of self-consciousness and national consciuosness of a personalit

**Author(s):**

**Arzu Ismayıllı**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** ismayilliarzu856@gmail.com

**Key words:** identity, national identity, emotional medium, family, social medium, personality, self-understanding

**Abstract.** In the article emotional medium acts as one of the important factors in the process of human socialization and its direct impact on self-understanding and the acquisition of national identity.The research analyzes positive and negative effects of the emotional medium, as well as psychological and pedagogical approaches aimed in developing national identity.

The actuality of the topic is connected with the formation of the developmental characteristics of national identity today that is of great importance, like in various periods.The purpose of the study is to investigate the impact of emotional medium to the formation of self-consciousness and national consciousness of a personality.İn particular, the role of family, social medium and mass media in identifying personality is analyzed. The methodology of the study is formed by relevant theoretical knowledge related to the theory of dialectical cognition, philosophical, psychological and pedagogical research on national identity.Various methods (observation, experiment, interview, survey and etc.) were used during the research.

At the end of the study it was noted that, the emotional medium should promote love and mutual respect in the family, provide emotional support at school and implement measures aimed in protecting national values in order to form a sense of identity and national identity.

## Роль эмоциональной среды в формировании самосознания личности и ее национальной идентичности

**Автор(ы):**

**Арзу Исмаилли**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** ismayilliarzu856@gmail.com

**Ключевые слова:** самосознание, национальная идентичность, эмоциональная среда, семья, социальная среда, личность

**Аннотация.** В статье эмоциональная среда рассматривается как одним из важных факторов в процессе социализации человека и показано ее непосредственное влияние на его самореализацию, усвоение национальной идентичности. В исследовательской работе анализируются положительные и отрицательные влияния эмоциональной среды, психолого-педагогические подходы, направленные на развитие национального самосознания.

Актуальность темы обусловлена тем, что сегодня, как и в разное время, большое значение имеет формирование особенностей развития национального самосознания. Цель исследования-изучить влияние эмоциональной среды на формирование самосознания личности и национального самосознания. В частности, анализируется роль семьи, социальной среды и средств массовой информации в восприятии человеком своей идентичности. Методологию исследования составляют диалектическая теория познания, соответствующие теоретические знания о философских, психолого-педагогических исследованиях национального самосознания. Во время исследования используются различные методы (наблюдение, эксперимент, интервью, опрос и т. д.).) используется.

В заключении исследования отмечается, что эмоциональная среда является результатом воспитания любви и взаимоуважения в семье для формирования самосознания личности и национального самосознания, обеспечения эмоциональной поддержки в школе и осуществления мероприятий, направленных на сохранение национальных ценностей.

**Giriş.** Müasir psixologiya elmi sübut edir ki, cəmiyyətin bir üzvü olan insan bir şəxsiyyət olaraq onun özü ilə inikas olunan mövcud obyektiv münasibətləri beynində əks etdirir. Ətraf aləmdə baş verən hadisələrin insan beynindəki inikası zamanı həmin şəxsiyyətin hisslərini və emosional aləmini təşkil edir. Deməli, insanın emosional halı onun hisslərindən doğur. Emosional mühit şəxsiyyətin formalaşmasında, xüsusilə də mənlik şüuru və milli mənlik şüurunun inkişafında mühüm rol oynayır. İnsanlar sosial varlıq olaraq ətraf mühitlə, cəmiyyətlə və ailə ilə qarşılıqlı əlaqədə formalaşır və bu prosesdə emosional mühit əsas təsir edən faktorlar sırasındadır.

**Emosional mühitin mənlik şüuruna təsiri.** Mənlik şüuru insanın özünü dərk etməsi, kim olduğunu anlaması və öz şəxsiyyətini formalaşdırması prosesidir. Bu şüurun formalaşması üçün emosional mühit bir neçə istiqamətlərdə təsir göstərir. İlk olaraq, sevgi və dəstək dolu bir mühitdə böyüyən fərdlər özlərini daha inamlı hiss edirlər, emosional baxımdan sağlam ailə və cəmiyyət içində böyüyən insanlar başqaları ilə ünsiyyətdə daha rahat olur, ailə və cəmiyyətin verdiyi emosional siqnallar fərdin hansı dəyərləri mənimsədiyini müəyyənləşdirir.

Şəxsiyyətin özünü dərk etməsi, öz kimliyini anlaması və cəmiyyətdə özünü necə ifadə etməsi əsasən onun ətraf mühitdən aldığı emosional təsirlərdən asılıdır. Bu təsirlər müsbət (pozitiv) və ya mənfi (neqativ) ola bilər.

**Pozitiv emosional mühit.** Ailədə sevgi dolu atmosfer, cəmiyyətdə dəstəkləyici münasibətlər şəxsiyyətə özünə inam yaradır və milli dəyərlərə olan marağını artırır. Şəxsiyyətin mənlik şüurunun sağlam şəkildə formalaşmasına, özünü dəyərləndirməsinə və milli mənlik şüurunun güclənməsinə səbəb olur. Ailə, məktəb və cəmiyyətin göstərdiyi dəstək və anlayış insanın özünü cəmiyyətin bir üzvü kimi hiss etməsinə kömək edir. Rəğbət və müsbət rəy insanın öz bacarıqlarını inkişaf etdirməsinə və cəmiyyətdə aktiv rol oynamasına şərait yaradır. Pozitiv mühitdə böyüyən insanlar daha sosial və ünsiyyətcil olurlar, cəmiyyətə daha rahat uyğunlaşırlar. İnsan dəyərləndirildiyini, fikirlərinin önəmli olduğunu hiss etdikdə özünəinamı artır. Bu, onun şəxsiyyət kimi inkişaf etməsinə müsbət təsir edir. Dəstəkləyici emosional mühit şəxsiyyətin öz məqsədlərinə çatmasına, potensialını tam şəkildə reallaşdırmasına kömək edir.

**Neqativ emosional mühit.** Ailədə münasibətlərin soyuması, cəmiyyətdə diskriminasiya və sosial təcrid insanın özünü tapmasını çətinləşdirir, milli kimliyə qarşı biganəlik yarada bilər. Bu mühit insanın psixoloji durumuna mənfi təsir edərək, mənlik və milli mənlik şüurunun pozulmasına gətirib çıxara bilir. Daimi tənqid, laqeydlik və mənfi rəy insanın öz dəyərini şübhə altına almasına səbəb olur. Neqativ emosional mühit insanın cəmiyyətdən uzaqlaşmasına, özgələşməsinə və sosial əlaqələrinin zəifləməsinə səbəb olur. Əgər şəxsiyyət öz milli mənsubiyyətini mənfi emosional mühitdə yaşayaraq formalaşdırırsa, bu, onun milli kimliyinə yadlaşmasına və ya dəyərsiz yanaşmasına gətirib çıxara bilər.

Milli mənlik şüuru insanın öz milliyətinə aid olduğunu dərk etməsi və bu aidiyyətin hissi münasibətlərə çevrilməsidir. Milli dəyərlərin qorunması, tarixi biliklərin aşılanması və mədəni irsin tanıdılması bu şüurun formalaşmasında vacib rol oynayır. Ailədə və təhsil sistemində verilən dəyərlər sayəsində uşaqlarda milli kimlik şüuru yaranır və onlar öz millətlərini daha yaxşı qavraya bilirlər.

Vətənpərvər olmaq üçün hər bir şəxsiyyətin mənlik şüurunda həm də şərəf və ləyaqət hissi olmalıdır. Belə ki, ədalətli və insaflı olmasından ötrü insanda humanizm duyğuları onda baş qaldırmalıdır. Ədalətli insanın mənlik şüurunda insaflılıq elementləri daha zəngin olur. Çünki ədalətlilik hissindən daha çox insaflılıq duyğuları şəxsiyyətin mənlik şüurunu zənginləşdirir.

**Materiallar və metodlar**. Bu məqalədə şəxsiyyətin mənlik və milli mənlik şüurunu araşdırmaq üçün bir sıra materiallardan istifadə olunmuşdur. Tədqiqatın metodologiyasını dialektik idrak nəzəriyyəsi, milli mənlik şüuruna dair fəlsəfi, psixoloji-pedaqoji tədqiqatlarla bağlı müvafiq nəzəri biliklər təşkil edir.

Dialektik idrak nəzəriyyəsi, insanın şüurunun formalaşmasının sosial, mədəni və psixoloji amillərlə qarşılıqlı təsirini öyrənməyə imkan verir. Milli mənlik şüuruna dair fəlsəfi yanaşmalar isə fərdin öz mədəni kimliyini dərk etməsi və kollektiv milli dəyərləri mənimsəməsi prosesini izah edir. Eyni zamanda, psixoloji-pedaqoji yanaşmalar da mühüm yer tutur. Şəxsiyyətin inkişa-

fında emosional mühitin rolu psixoloji baxımdan analiz edilir və pedaqoji aspektlər nəzərə alınaraq, tərbiyə və təhsil prosesində emosional mühitin əhəmiyyəti vurğulanır.

Tədqiqat zamanı müxtəlif metodlardan (müşahidə, eksperiment, müsahibə, sorğu və s.) istifadə olunmuşdur.

***Müşahidə metodu*** – Fərqli emosional mühitlərdə böyüyən şəxslərin davranışları, sosial münasibətləri və şəxsiyyətin inkişafı müşahidə edilmişdir.

***Sorğu və müsahibə metodu*** – Müxtəlif yaş qruplarında olan şagirdlər arasında sorğular və fərdi müsahibələr aparılmışdır.

***Eksperimental metod*** – Fərqli emosional şəraitlərdə (məsələn, dəstəkləyici və ya neqativ mühitlərdə) olan şəxslərin mənlik şüurunun inkişafına təsiri müəyyənləşdirilmişdir.

**Nəticələr və müzakirə.** Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə oynadığı rol çoxşaxəli və mürəkkəb bir prosesdir. Bu mühitin pozitiv və neqativ təsirləri fərdin öz kimliyini dərk etməsi, ictimai norma və dəyərləri mənimsəməsi ilə sıx bağlıdır. Müxtəlif psixoloji və pedaqoji araşdırmalar göstərir ki, sağlam emosional mühitdə böyüyən insanlar özünü dərk etmə baxımından daha güclü olur, sosial adaptasiya və psixoloji rifah baxımından daha sabit xarakter nümayiş etdirirlər.

Aparılan tədqiqatlar göstərir ki, ailədə, məktəbdə və cəmiyyətdə yaradılan emosional mühit şəxsiyyətin psixososial inkişafında mühüm rol oynayır. Pozitiv və dəstəkləyici mühit fərdin özünü rahat və güvəndə hiss etməsinə imkan yaradır, bu isə həm fərdi, həm də milli kimliyin sağlam şəkildə formalaşmasını təmin edir.

Yeniyetmələr üçün emosional mühitin ünvanını müəyyənləşdirməklə onlara psixoloji təsiri məqsədyönlü, planlı və mütəşəkkil olaraq təşkil etmək üçün eksperimental iş həyata keçrilmişdir. Tədqiqatın planına və işçi fərziyyəsinin tələblərinə müvafiq olaraq seçilən VIII-IX və X-XI sinif şagirdlərindən ibarət eksperimental qruplar yaradıldı.

Naxçıvan Muxtar Respublikasının 12 saylı tam orta məktəbinin VIIIa, IXa, Xa və XIa siniflərində apardığımız psixoloji müşahidələrin nəticələrinə əsasən şagirdlərə müvafiq suallarla müraciət edərkən qaneedici cavablar alınmadı. Həmin sualların sırasında “Mənlik nədir?”, “Milli mənlik nədir?”, “Mənlik şüuru nədir?”, “Milli mənlik şüuru nədir?”, “Özünüqiymətləndirmə deyəndə nə başa düşülür?”, “Milli mənəvi dəyərlərə hörmətlə yanaşma deyəndə nə başa düşülür?” suallarına verilən cavabların primitiv, şablon xarakterli və qeyri-elmi olduğundan apardığımız təhlillərdən sonra aşağıdakı qənaət hasil oldu.

Şagirdlərin mənlik və milli mənlik şüuru ilə bağlı təsəvvürləri bəsit olduğu üçün onlarla bu barədə məqsədyönlü, planlı və mütəşəkkil olaraq işlərin aparılması məqsədəmüvafiq hesab edilməlidir. Şagirdlər üçün milli mənlik şüuru adı altında “dəyirmi masa”, “şagird konfransları”, “maraq kursları”, kimi tədris kursları təşkil edilməlidir. Yeniyetmə şagirdlər üçün mənəvi dəyərlər, milli mənəvi dəyərlərlə bağlı mövzular ətrafında söhbətlər təşkil edilməlidir.

**Yekun nəticə.** Araşdırmalar göstərir ki, emosional mühit şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşmasında mühüm rol oynayır. Pozitiv emosional mühit fərdin özünə inamını artırır, onu cəmiyyətə daha sağlam şəkildə inteqrasiya edir və milli kimliyini qorumasına kömək edir. Ailə, məktəb, sosial institutlar və media emosional mühitin formalaşmasında əsas amillərdir. Cəmiyyətin və fərdlərin rifahı üçün sağlam emosional mühitin yaradılması vacibdir. Bu məqsədlə ailədə sevgi və qarşılıqlı hörmətin təşviq edilməsi, məktəbdə emosional dəstəyin təmin olunması və milli dəyərlərin qorunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi tövsiyə olunur.

Beləliklə, sağlam emosional mühit yaratmaq, fərdin özünə və milli kimliyinə hörmətini artıran şərait formalaşdırmaq, gələcək nəsillərdə güclü mənlik şüurunun və milli identikliyin inkişafına töhfə vermək baxımından olduqca vacibdir. Bu səbəbdən ailələr, təhsil müəssisələri və cəmiyyət bu məsələyə xüsusi diqqət yetirməli və sağlam emosional mühitin yaradılması üçün sistemli şəkildə fəaliyyət göstərməlidir.

Gələcək tədqiqatlar emosional mühitin konkret amillərinin şəxsiyyətin mənlik və milli mənlik şüuruna necə təsir etdiyini daha ətraflı araşdırmalı, müxtəlif sosial qruplar üzərində aparılan empirik tədqiqatlarla bu mövzunun aktuallığını daha da gücləndirməlidir.

**Ədəbiyyat**

1. Abbasov, A.N. Milli əxlaq və ailə / A.N.Abbasov. – Bakı: Mütərcim, – 2008. – 296 s.
2. Abbasov, A.N. Pedaqogika / A.N.Abbasov, H.Ə.Əlizadə. – Bakı, – 2000
3. Abdullayev, Ə. Yaş və pedaqoji-psixologiya. II hissə / Ə.Abdullayev, Ə.Məmmədov, Ə.Bayramov, M.Həmzəyev. – Bakı: ADPU, – 1981. – s.30-42
4. Ağayev, Ə.Ə. Pedaqoji fikrimiz: Dünənimiz, bu günümüz / Ə.Ə.Ağayev. – Bakı: Elm, – 2000. – 299 s.
5. Axundov, S.S. Mənəvi tərbiyə və peşə ariyentasiyası / S.S.Axundov. – Bakı: Qapp Poliqraf Korporasiyası, – 2003. – s.10–29

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, professor Gültac Əliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 18.02.2025, qəbulolunma – 06.03.2025